***Elnarə HÜSEYNQIZI-ƏMİRLİ***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*e-mail: elnaramirli@gmail.com*
*ORCID: 0000-0002-9050-9139*
*https://doi.org/10.59849/2309-7922.2026.1.200*

# TÜRK XALQLARI FOLKLORUNDA KOMİK PERSONAJ MƏSƏLƏSİNİN TƏDQİQİ HAQQINDA

**Xülasə**

Türk xalqları folklorunda komik personajlar müxtəlif dövrlərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bu tədqiqatlarda daha çox Molla Nəsrəddin, Kəloğlan, Keçəl, Kosa, Aldar Kosa və s. personajlarla bağlı tədqiqatlar xüsusi yer tutur. Müxtəlif türk ləhcələrində fərqli şəkildə adlandırılan bu personajlar vasitəsilə sosial ədalətsizlik, avamlıq, riyakarlıq, hakimiyyət və gündəlik məişət məsələləri yumorla ifadə olunur. Komik qəhrəman çox vaxt zəifin güclü üzərində qələbəsini ağıl və hazırcavablıq yolu ilə göstərir. Məhz bu xüsusiyyətlərinə görə komik personajların öyrənilməsi folklor mətnlərinin sosial, psixoloji və mədəni qatlarını anlamaq üçün mühüm əhəmiyyət daşıyır.

Komik personajların tədqiqinə dair elmi yanaşmalar türk xalqlarına xas toplama materialı ilə birlikdə araşdırılarkən müqayisəli təhlillərə gətirib çıxarır ki, bu da həmin personajlar haqqında fikirlərin daha da aydınlaşmasına səbəb olur. Zaman keçdikcə bu personajlar yeni dövrlərin düşüncə və ideoloji mühitinə uyğun şəkildə dəyişmiş, lakin öz əsas funksiyasını qorumuşdur. Buna görə də komik personajın öyrənilməsi yalnız onun təhlili deyil, həm də yer aldığı mətnin və bütövlükdə folklor mühitinin kompleks şəkildə araşdırılması üçün vacib bir məsələdir.

**Açar sözlər:** türk xalqları, folklor, komik personaj, Molla Nəsrəddin, Bəhlul Danəndə, Kəlniyyət, Kəloğlan, Aldar Köse

***Elnara HUSEYNGIZI-AMIRLI***

# A STUDY OF COMIC CHARACTERS IN THE FOLKLORE OF THE TURKIC NATİONS

**Summary**

Comic characters in the folklore of the Turkic nations have been examined by various scholars across different historical periods. Among these studies, particular attention has been devoted to figures such as Molla Nasreddin, Kechel, Keloglan, Kosa, Aldar Kosa. Through these characters, themes of social injustice, ignorance, hypocrisy, authority, and everyday social relations are articulated in the language of humor. The comic hero often demonstrates the triumph of the weak over the powerful through intelligence, wit, and verbal agility. For this

reason, the study of comic characters is essential for understanding the social, psychological, and cultural layers embedded within folkloric texts.

When these scholarly approaches are examined alongside the collected materials specific to various Turkic communities, they lead to comparative analyses of character traits. Such comparisons help clarify the distinctive yet shared features of comic figures across the Turkic world. Over time, these characters have adapted to the intellectual and ideological contexts of new eras, while preserving their fundamental functions. Therefore, the study of the comic character is not limited to the analysis of a single figure; it also requires a comprehensive examination of the text in which the character appears and of the broader folkloric environment, that sustains it.

**Key words:** Turkic nations, folklore, comic character, Molla Nasreddin, Bahlul Danande, Keloglan, Aldar Köse

***Эльнара ГУСЕЙНГЫЗЫ-АМИРЛИ***

## О ПРОБЛЕМЕ ИССЛЕДОВАНИЯ КОМИЧЕСКИХ ПЕРСОНАЖЕЙ В ФОЛЬКЛОРЕ ТЮРКСКИХ НАРОДОВ

**Резюме**

Комические образы в фольклоре тюркских народов на протяжении разных исторических периодов привлекали внимание многих исследователей. Особое место в научных работах занимают такие персонажи, как Молла Насреддин, Келоглан, Алдар Кёсе. Через эти фигуры в юмористической форме раскрываются темы социальной несправедливости, невежества, лицемерия, власти и повседневных общественных отношений. Комический герой часто показывает победу слабого над сильным благодаря уму, находчивости и остроумию. Поэтому изучение комических персонажей важно для понимания социальных, психологических и культурных смыслов, заложенных в фольклорных текстах.

Сопоставление научных подходов с материалами, собранными у разных тюркских народов, позволяет проводить сравнительный анализ особенностей этих образов. Такой подход помогает выявить как общие черты, характерные для всего тюркского мира, так и региональные особенности. Со временем данные персонажи менялись в соответствии с новыми историческими и идеологическими условиями, но сохраняли свою основную функцию. Таким образом, исследование комического образа предполагает не только анализ самого персонажа, но и комплексное изучение текста, в котором он представлен, а также более широкого фольклорного контекста его существования.

**Ключевые слова:** тюркские народы, фольклор, комический образ, Молла Насреддин, Бахлул Дáненде, Келоглан, Алдар Кёсе

Türk xalqları folklorunda komik personajlar müxtəlif dövrlərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bu tədqiqatlar arasında Molla Nəsrəddin, Keçəl, Kəloğlan, "Aldar Köse" və s. personajlarla bağlı tədqiqatlar xüsusi yer tutur. Bəhlul Danəndə ilə bağlı kifayət qədər şifahi nümunələr mövcud olsa da, ayrıca və geniş bir tədqiqata rast gəlinmir. O, əsasən lətifə janrı və komik personajlar haqqında ümumi araşdırmalar çərçivəsində epizodik şəkildə xatırlanır və təhlil edilir. Tədqiqatçı T.Fərzəliyev hələ 1971-ci ildə nəşr edilmiş əsərində Azərbaycan lətifələrinin tədqiqi məsələlərini araşdırarkən nümunələrin müşayiəti ilə Molla Nəsrəddin personajının funksional xüsusiyyətlərini təhlil etmişdir (Fərzəliyev, 1971). Prof. A.Həsənqızı mühacirət folkloru haqqında tədqiqatında lətifələrdən bəhs edərkən yazır: "Ümumiyyətlə, Azərbaycan folklorşünaslığında xalq ədəbiyyatının bu janrı haqqında danışılarkən, ilk növbədə Bəhlul Danəndə və Molla Nəsrəddin xatırlanmaqdadır. Belə ki, bir tərəfdən, tarixi şəxsiyyət, digər tərəfdən, bütün Şərq xalqlarının müştərək (və sevimli) personajı kimi tanınmaları lətifələrin daha çox onların adı ilə bağlanmasına səbəb olmuşdur (Həsənqızı, 2016, s. 337). Müxtəlif türk ləhcələrində Nəsrəddin Hoca, Xoca, Afandi, Ependi və s. kimi tanınan Molla Nəsrəddin personajı ilə bağlı şifahi mətnlərin yayılma sahəsi geniş olduğu üçün variantların da zənginliyi təbii haldır. Türk xalqları folkloruna xas komik personajlar vasitəsilə sosial ədalətsizlik, avamlıq, riyakarlıq, hakimiyyət və gündəlik məişət münasibətləri yumor dili ilə ifadə olunur. Ümumiyyətlə, uyğun tədqiqatlarda komik qəhrəmanın ən başlıca xüsusiyyəti zəifin güclü üzərində ağıl və hazırcavablıq yolu ilə qələbəsi şəklində ifadə edilir.

1996-cı ildə UNESCO tərəfindən "Nasreddin Hoca İli" elan olunmasından sonra Türkiyədə mövzu ətrafında geniş elmi və ictimai fəaliyyətlər özünü göstərir ki, P.N.Boratavın 42 illik araşdırmasının nəticəsi olan "Nasreddin Hoca" əsəri də məhz bu dövrün məhsuludur. Kitab iki hissədən ibarətdir: birinci hissədə P.N.Boratavın daha əvvəllər nəşr etdirdiyi elmi məruzə və məqalələr, ikinci hissədə isə müxtəlif əlyazmalardan seçilmiş 594 lətifə yer alır. Müəllif "Nasreddin Hoca"nı müqəddəsləşdirilmiş və yalnız dini çərçivədə təqdim olunan bir personaj kimi deyil, daha real və çoxcəhətli bir şəxsiyyət kimi göstərir, bu nümunələrdə qarşıya çıxan ironiyanı da bu kontekstdə izah edir. P.N.Boratav həmçinin bir çox lətifənin zamanla "Hoca"ya aid edildiyini və "bir neçə Nasreddin" tipinin formalaşdığını göstərir. Əsər nəşr olunarkən qalmaqala səbəb olmuş, müəllif müəyyən ittihamlarla qarşı-qarşıya qalmış, ideoloji dairələr tərəfindən tənqid edilmişdir. Buna baxmayaraq, kitab "Nasreddin Hoca" tədqiqatlarında mühüm və dönüş nöqtəsi hesab olunur. Müəllif ona qədər Nəsrəddin Hoca personajı ilə bağlı hələ XIX əsrdən sonlarından başlayıb XX əsrdə də Türkiyədə, Güney Azərbaycanda, eyni zamanda dünyanın müxtəlif ölkələrində daha geniş şəkildə və sürətlə davam edən araşdırmalara istinad edərək onun müxtəlif şəkildə adlandırılan "ortaq" personaj olduğuna diqqət çəkir (Boratav, 1996).

G.Öğüt-Eker 2005-ci ildə nəşr etdirdiyi məqalədə Nəsrəddin surətinin müxtəlif türk cəmiyyətlərində necə yaşadığını müqayisəli şəkildə araşdırır. O, müxtəlif

türk toplumlarında lətifə janrının adlandırılması məsələsini, lətifə qəhrəmanını tədqiqat və toplama nümunələri vasitəsilə təhlil edir. G.Öğüt-Eker bu kontekstdə kumıqlarda "Molla Nasrəddin" adı ilə tanınan personajla bağlı arxivlərdə toplanmış materiallardan bəhs edir, personajın xüsusiyyətləri ilə bağlı nəşrlərə diqqət çəkir. Daha sonra tatar (Kazan) elmi mühitində "Letaif-i Hoca Nasreddin" haqqında nəşrlərdən bəhs edərək bu mühitdə personajın yerli həyatla uyğunlaşdırılması (eşşəyin atla əvəzlənməsi, coğrafi adların yerli adlara uyğunlaşdırılması və s.) məsələlərinə nəzər yetirir. Tədqiqatçı daha sonra Azərbaycanda Nəsrəddin personajının ənənə ilə əlaqələndirilməsi və uyğun olaraq "Molla Nəsrəddin" jurnalının XX əsrdə "xalqın səsi" funksiyasını yerinə yetirməsinin mühüm hadisə olmasından söz açır. Türkmən, özbək, uyğur, qazax, qırğız toplumlarında lətifənin adlandırılmasından (latifa, çakçak və s.), yerli komik personajlardan (Aldar Köse), bölgədən toplanmış nümunələrin süjetlərində Nəsrəddinin bəzən tək, bəzən də başqa personajlarla yanaşı iştirakından bəhs edilərək müəyyən müqayisəli təhlillərin aparılması da tədqiqatın elmi çəkisini artırır (Öğüt-Eker, 2005).

Molla Nəsrəddin personajının tədqiqindən bəhs edərkən M.Kazımoğlunun araşdırmaları diqqət çəkir. Tədqiqatçıya görə, lətifələrdə gülüş çox vaxt "başqasına" yox, elə qəhrəmanın özünə də yönəlir. O, xüsusilə Molla Nəsrəddin lətifələrində Mollanın tez-tez həm tənqid edən, həm də tənqid olunan mövqedə olduğunu vurğulayır. M.Kazımoğluna görə bu, lətifənin sosial tənqid gücünü artırır, çünki gülüş içəridən gəlir və özünütənqid kimi özünü göstərir (Kazımoğlu, 2006, s. 21). O, Molla Nəsrəddin haqqında nümunələri təhlil edərək yemək, mal-mülk, ehsan kimi mövzuların təkcə xəsisliyin tənqidi olmadığını, bəzi hallarda daha qədim dünyagörüşü qatları ilə də bağlı olduğunu qeyd edir (Kazımoğlu, 2006, s. 36).

"Özbək yumorunda Nəsrəddin Hoca" adlı məqaləsində E.Solmaz lətifələrin yalnız oxucunu güldürmək vasitəsi deyil, həm də sosial-mədəni və didaktik xüsusiyyətindən bəhs edərək türk dünyasının məşhur lətifə personajı olan "Nasreddin Hoca"nın Özbekistan mədəniyyətində Afandi adı ilə tanınması, onun hikmət, sosial tənqid funksiyasını diqqətə çatdırır (Solmaz, 2016, s. 233). Məqalə həmçinin Afandinin cəmiyyətdə "hər kəsin səsi" olduğunu, ədalətsizliklə mübarizə aparan ağıllı qəhrəman, bəzən sadə insan, bəzən isə axmaq kimi özünü göstərməsindən bəhs edir (Solmaz, 2016, s. 234). E.Solmaz personaj haqqında müxtəlif şifahi örnəklərə və nəzəri fikirlərə istinad edərək onun ağıllı, ədalətli, insanlarla dil tapmağı bacaran bir personaj olduğunu və xalq tərəfindən sevilməsini dəfələrlə vurğulayır (Solmaz, 2016, s. 236). Məqalə sonunda müəllif Afandinin xalqın gündəlik həyat problemlərini gülüş vasitəsilə ifadə edən "bilge" surəti olduğunu qeyd edir (Solmaz, 2016, s. 237). E.Solmazın 2017-ci ildə nəşr etdirdiyi ikinci məqaləsi də "Nasreddin Hoca" personajının funksional xüsusiyyətlərinin öyrənilməsi baxımından səmərəli mənbədir. Məqalədəki əsas fikir budur ki, folklor məhsulu olaraq lətifələr sadəcə əyləndirmə vasitəsi deyil, həm də insanların mədəni və sosial ehtiyaclarını qarşılayan funksiyaları yerinə yetirir. Tədqiqatın başlanğıcında antropoloji və funksional nəzəriyyələrə istinad edilərək Afandi lətifələrinin əyləndirmə,

tənqid, təlim və sosial nəzarət və s. məsələlər təhlil edilir və bu kontekstdə "Afandi" personajı onun "Nasreddin Hoca" şəklində adlandırılan variantları ilə müqayisə edilir (Solmaz, 2017, s. 76). H.Quliyev isə Molla Nəsrəddinlə bağlı fikirlərində "status"la "davranış" arasındakı ziddiyyəti komizmin mənbəyi kimi izah edir. "Molla/xoca/əfəndi" kimi nüfuz bildirən adlar qəhrəmanı ciddi göstərsə də, onun hərəkətləri çox vaxt bu gözləntini pozur və gülüş də buradan yaranır. H.Quliyevə görə, personajın komikliyi məhz bu uyğunsuzluğun davamlı şəkildə təkrarlanması ilə ifadə edilir" (Guliyev, 2020, s. 132). Əgər M.Kazımoğlu gülüşün folklorda "funksiya" xüsusiyyətlərindən bəhs edirsə, H.Quliyev isə həmin funksiyanın personajın fəaliyyəti ilə əlaqəsinə diqqət çəkir (Kazımoğlu, 2006, s. 21; Guliyev, 2020, s. 132).

Türk xalqları folkloruna aid tədqiqatlarda diqqət çəkən digər personaj "Aldar Köse"dir. Bu personaj Asiyanın mərkəzində yaşayan türk xalqlarının şifahi ənənəsində "hiyləgər-komik" personaj kimi araşdırılır. Tədqiqatların böyük hissəsi onun janrlararası (nağıl, lətifə) keçidlərini, hər janr nümunəsindəki statusunu və uyğun olaraq sosial funksiyasını ön plana çəkir. H.İ.Şahin Aldar Kösenin qazax, qırğız, özbək, türkmən və qaraqalpaq folklorunda həm nağıl, həm də lətifə mühitində yaşadığını, Anadolu bölgəsindəki paralellərinin mövcudluğunu qeyd edərək personajın "ortaqlaşma" prosesini göstərir (Şahin, 2012, s. 172). H.İ.Şahinə görə bu personajın funksiyasının əsas vasitəsi "aldatma"dır: Aldar Köse adi insanları aldadan, hətta Şeytana da kələk gələn, söz oyunları və müəyyən hiylələrlə qarşı tərəfi tələyə salan qəhrəmandır (Şahin, 2012, s. 171). Tədqiqatçı həmçinin Daşkənddə Çar Rusiyası dövründə nəşr olunmuş "Aldar Köse Kitabı"nın bu sahədə erkən mətn nəşrlərindən biri olduğunu vurğulayır və sovet dövrü nəşrlərindən əvvəlki yazılı mənbələrə diqqəti çəkir (Şahin, 2012, s. 172).

E.Aday və K.Moldatayevin həmmüəllifliyi ilə nəşr edilən "Kazak Halk Edebiyatında Bir Mizah Kahramanı Olarak Aldar Köse" adlı məqalə Aldar Köse personajını qazax şifahi nümunələri kontekstində komik personaj kimi araşdırılır və onun xüsusiyyətləri, bu nümunələrin məzmunu və yayılma istiqaməti təhlil edilir. Məqalədə "Aldar Köse"nin lətifələrlə yanaşı digər folklor nümunələrində yer alması, onun aldadıcı, ağıllı və xalqı güldürən surət kimi tanınması vurğulanır. Araşdırmada qeyd olunur ki, Aldar Köse haqqında elmi araşdırmalar azdır və bu araşdırmalarda personajın Türk dünyasında ümumi personaj kimi qəbul edilməsi ilə bağlı boşluqlar mövcuddur. Bəzi müəlliflər onun qazax coğrafiyasında ortaya çıxaraq digər türk xalqları arasında yayıldığını və xüsusilə qırğız, özbək, türkmən və qaraqalpaq dillərində olan folklor materiallarında rast gəlindiyini qeyd edirlər. Müəllif həmçinin "Aldar Köse" surətinin Nəsrəddin Hoca kimi digər ümumi türk folklor personajları ilə əlaqələrini təhlil edir, diferensiallıqlar və bənzərliklərə diqqət çəkir. Nəsrəddin Hoca ilə "Aldar Köse" personajlarının müqayisəsi ilə tədqiqatçı bu nəticəyə gəlir ki, "Aldar Köse" daha çox "trikster" tipinə yaxındır, hakimləri, varlıları, xəsisləri açıq-aşkar aldadan, hiylə ilə qalib gələn personajdır, "Nasreddin Hoca" isə çox vaxt fikirləri məntiqi çevirmə ilə qalib gəlir; Nəsrəddin

bəzən özü də gülüş obyektidir; Aldar nadir hallarda uduzar və gülünc hala düşər. Bu personajların oxşar xüsusiyyətlərinə isə müəllif hər ikisinin sosial ədalətsizliyi ifşa etməsi, xalqın zəif tərəfinin "qisas" vasitəsi olmasını aid edir. Məqalədə "Aldar Köse"nin təkcə əyləncə məqsədilə deyil, həm də xalqın sosial və mədəni dəyərlərini əks etdirən bir personaj olması, onun həm əfsanə, həm də lətifə komponentləri ehtiva etməsi, bu səbəbdən də həmin nümunələrdə janrlararası sərhədin qarışdığı vurğulanır (Aday, Moldatayev, 2016, s. 79-90). Bundan başqa, araşdırmalarda "Aldar Köse" təkcə "güldürən" deyil, həm də əxlaq məsələləri, yoxsulluq-zənginlik kimi mövzuları ifadə edən personaj kimi tanınır. G.V.McGuire öz araşdırmasında S.Tompsonun müəyyən etdiyi K111.1 – "Qızıl verən heyvanın satılması" motivinə istinad edərək "Aldar Köse" örnəklərində "qızıl tökən heyvan" süjet xəttinin beynəlxalq folklor kontekstində yerini göstərir. Müəllif bu motiv xəttini izləyərək "Aldar Köse" örnəklərinin müxtəlif dövrlərdə müxtəlif regionlarda variantlaşaraq ideoloji və iqtisadi kontekstə uyğunlaşdığından bəhs edir. McGuire üçün əsas məsələ odur ki, variantlarda triksterin "nizamsızlıq"dan "nizamın təbliğatçısı"na çevrilməsi həmin nümunələrin kütləvi mədəniyyətə transferi ilə müşayiət edilir (McGuire, 2022, s. 281–283). Məqalədə Cənubi Sibir və Cunqar çölündə yaşayan türk tayfalarının folklor nümunələrindən ibarət "ən erkən yazıya alınmış" və 1870-ci ildə nəşr edilən topluya istinad edilərək "Aldar Köse" ilə bağlı motivlər Avrasiya trikster ənənəsi ilə əlaqələndirilir. Bu elmi yanaşmalar türk xalqlarına xas toplama materialı ilə birlikdə araşdırılarkən personajın xüsusiyyətlərinin müqayisəli təhlillərinə gətirib çıxarır ki, bu zaman da türk xalqlarına xas komik personajlar haqqında fikirlər daha aydın görünür: məsələn, Qazax folklorunda klassik hiyləgər personaj kimi tanınan "Aldar Köse"nin eyni şifahi ənənədə xəsis, varlı və acgöz personaj kimi təqdim olunan Şıqbermes Şığaybayla qarşılaşdırılması "xalqın ədalət yolunda mübarizəsinin"nı yumor vasitəsi ilə ifadəsini ortaya qoyur. Bu personajlar sosial gərginlikləri "öz üsulları ilə həll etmə" funksiyasını daşıyır (Сказка Алдар Көсе и Шыкбермес Шығайбай, 2026). Bütün bunları ümumiləşdirərək vurğulamaq olar ki, "Aldar Köse" tədqiqatları iki istiqamətdə özünü göstərir: bir tərəfdən tədqiqatçılar "Aldar Köse haqqında ən qədim nəşrləri, müxtəlif bölgələrə məxsus variantlardan bəhs edərək onun həm nağıl, həm də lətifə kimi janrlarda necə yaşadığını təhlil edir (Şahin, 2012, s. 171), digər tərəfdən isə "Aldar Köse" ilə bağlı nümunələrin zaman keçdikcə dəyişikliyə uğraması, müxtəlif dövrlərdə sosial, iqtisadi və ideoloji şərtlərə uyğunlaşaraq yeni məna qazanmasından bəhs edilir (McGuire, 2022, s. 281, s. 283).

Ümumtürk folkloruna xas olan digər bir komik personaj "ironik" qəhrəman qəliblərindən biri olan Keloğlandır. Keloğlan personajı müxtəlif tədqiqatlarda tipoloji, funksional baxımdan təhlil edilmişdir. P.Ergun Altay dastanlarındakı Tastarakay motivi ilə Anadolu türk masallarındakı "Keloğlan" tipini eyni mədəni-motiv sistemindən törəyən surətlər kimi izah edir. Tədqiqatçıya görə,"kellik" yalnız fiziki cəhət deyil, eyni zamanda Tanrının "kut" (müqəddəslik və səlahiyyət) ilə əlaqəli simvoludur və bu, Altay hakanlarının kılık dəyişdirərək xalq arasında do-

laşması motivləri ilə "Keloğlan" obrazının sosial funksiyasını yaxınlaşdırır (Ergun, 2004, s. 1–2). Məqalədə qeyd edilir ki, həm Tastarakay, həm də "Keloğlan" xarakterləri zəki, güclü, dürüst, eyni zamanda komik və "gücsüz" görünüşlüdür, lakin bu görünüş onların nəticədə böyük rollar oynadığını göstərir (Ergun, 2004, s. 2). Müəllif həm də bu tipin dastan və nağıl ənənələri arasında keçid rolunu vurğulayır. Beləliklə, bu tədqiqat Kəloğlan barədə folklorşünaslıqda tipoloji köklər və müqayisəli motivlər barədə yeni bir nəzəri baxış təqdim edir. E.Şimşek də Kəloğlanın zahiri görünüşünə diqqət çəkir, türk masallarının "milli tipi" kimi xarakterizə edərək onun zahiri qüsur – kəllik ilə daxili zəkanın birləşdiyi bir surət olduğunu vurğulayır. Araşdırıcıya görə, bu personaj, xüsusilə Anadolu mühitində yoxsul, lakin ağıllı gənc kimi hakimiyyətin yuxarı təbəqələrinə (padişah, vəzir və s.) öz davranışları ilə qalib gələn sosial qəlib kimi təqdim edilir (Şimşek, 2017, s. 41). Bu məqalədə müəllif "Keloğlan" masallarına V.Proppun nağıl funksiyaları metodunu tətbiq edərək personajın xüsusiyyətlərini təqdim edir. Məqalə şamanizm elementlərinin Kəloğlan nümunələrində necə yaşadığını təhlil edərək bu tipin həm Anadolu, həm də Orta Asiya ənənələrində ortaq xüsusiyyətlər daşıdığını göstərir (Bolat, 2017, s. 201, s. 206-207). Regional müqayisə göstərir ki, Kəloğlan personajı yalnız Anadolu ilə məhdudlaşmır. Müxtəlif türk xalqlarında Keçəl, Keçəloğlan, Kelcebatır, Tazoğlan şəklində adlandırılan bu personaj qaqauz folklorunda "Kelce", "Kelce-Külce", "Delice" kimi adlarla qarşıya çıxır və kül, ocaq kimi simvolik elementlərlə əlaqələndirilir; nümunələrdə personaj yoxsulluqdan başlayaraq sosial yüksəliş xətti ilə fəaliyyət göstərir (Uçkun, 2018, s. 544–549). M.Ulutaş və Z.Batur isə göstərirlər ki, Kəloğlan masallarında qəhrəmanın macəraları çox vaxt ailə mühitindən başlayır və daha sonra sosial davranış nümunələrində davam edir. Tədqiqatçıların fikrincə, bu davranışların xüsusiyyətlərinin tədqiqində uyğun nağıllar da mühüm rol oynayır (Ulutaş & Batur, 2020). Bu yanaşma Kəloğlanın yalnız komik personaj deyil, həm də sosial funksiyalarının öyrənilməsinə yardım edir. Bütün hallarda Kəloğlan "zəifin güclüyə qalib gəlməsi" xüsusiyyəti daşıyır, lakin bu qalibiyyət fiziki güc deyil, zəka, və çeviklik vasitəsilə əldə olunur. Beləliklə, tədqiqatlarda Kəloğlan həm yerli xüsusiyyətləri ilə diqqət çəkir, həm də ümumtürk mədəni yaddaşında ortaq personaj kimi təqdim edilir.

Azərbaycan folklorşünaslığındakı araşdırmalara diqqət yetirsək, tədqiqatlarında komik personajlara da yönələn M.Seyidovu fəaliyyətin diqqəti cəlb edir. Tədqiqatçı komik personajları müstəqil "gülüş qəhrəmanları" kimi müəyyənləşdirməsə də, araşdırdığı personajlar arasında sonradan komik tipə çevrilmiş arxaik mifoloji fiqurların mövcudluğunu aydın şəkildə göstərir. Bu baxımdan Kosa və Keçəl personajları xüsusi yer tutur. M.Seyidovun fikrincə, Kosanın komik mahiyyəti sonradan formalaşmışdır. Eyni funksional yanaşma Keçəl obrazına da tətbiq olunur (Seyidov, 1983, s. 214-216). Folklorşünas M.Məmmədov ironik personaj kimi dəyərləndirdiyi Keçəlin çoxbilmiş, hiyləgər xüsusiyyətlərini önə çəkir. Tədqiqatçı Kosa və Keçəlin başlarına gələn əhvalatları danışmaqla auditoriyanın "səfeh" hərəkətlərə gülməsinə səbəb olmalarından bəhs edir. Eyni zamanda vurğu-

lanır ki, Kosanın kürkünü tərs geyinməsi, çox çirkin olması yalnız güldürmək məqsədi daşımır, həm də onun sakral dünyaya məxsusluğunu göstərir (Məmmədov, 2007, s. 7). Nümunələrdə Keçəl fiziki qüsuru ilə seçilir, lakin bu qüsur onun sosial üstünlüyə yüksəlməsinə mane olmur. Əksinə, fiziki "çatışmazlıq" komizmi gücləndirir. Kosa isə bolluq və bərəkət simvoludur və onun gülüşü ritual xarakter daşıyır. Daha sonra A.Cəlilovanın tədqiqatı diqqət çəkir. O, Keçəl personajını yarı müsbət, yarı mənfi tip adlandıraraq onun fəndgirliyini qabardır, hiyləgərliyinin bəzən işin xeyrinə olduğunu vurğulayır. O qeyd edir ki, Keçəl nağıllardakı düyünün açılmasında əsas rol oynayır (Cəlilova, 2016, s. 67).

Toplama materiallarından bəllidir ki, Azərbaycan folklorunda klassik lətifə personajları ilə yanaşı yerli sakinlər – baməzə insanlarla bağlı xeyli nümunələr vardır. Klassik lətifə qəhrəmanları ilə bağlı araşdırmalardan fərqli olaraq, Hacı dayı, Baqi dayı, Gəncəli Müsəllim və s kimi yerli personajlarla bağlı araşdırmalar azdır. Klassik komik personajlarla bağlı süjetlərin bəzən yerli sakinlərə aid edilməsi, bəzən isə onlarla bağlı tamamilə yeni süjetlərin qarşıya çıxması onu göstərir ki, süjetlərin  təsnif edilməsi baxımından bu mövzu ayrıca geniş bir araşdırma tələb edir.

Türk xalqlarına xas komik personajlarla bağlı tədqiqatları nəzərdən keçirərək belə qənaətə gəlirik ki, komik personajlar sadəcə güldürmür, xalqın düşüncə tərzini, ədalət anlayışını və həyatdakı çətinliklərə münasibətini əks etdirir. Haqqında bəhs etdiyimiz personajlar zahirən sadə və ya zəif görünsələr də, ağılları və hazırcavablıqları ilə güclüləri məğlub edirlər. Bu personajlar vasitəsilə ədalətsiz hakimiyyət, xəsislik və riyakarlıq tənqid olunur, cəmiyyətdəki ziddiyyətlər yumorla ifadə edilir. Türk dünyasının müxtəlif bölgələrində bu komik surətlər fərqli adlarla yaşasa da, əsas xüsusiyyətləri oxşardır: zəka gücdən üstündür, daxili üstünlüklər zahiri qüsura qalib gəlir, sosial ədalətsizlik gülüş yolu ilə ifşa edilir. Zaman keçdikcə bu surətlər yeni dövrlərin düşüncə və ideoloji mühitinə uyğun şəkildə dəyişmiş, lakin öz əsas funksiyasını qorumuşdur. Buna görə də komik personajın öyrənilməsi yalnız bir personajın deyil, onun yer aldığı mətnin və bütövlükdə folklor mühitinin araşdırılması üçün vacib bir məsələdir.

## QAYNAQLAR

1. Həsənqızı A. (2016). Azərbaycan mühacirət folklorşünaslığı. Bakı, Elm və təhsil

2. Fərzəliyev T. (1971). Azərbaycan xalq lətifələri. Bakı, Elm.

3. Kazımoğlu M. (2006). Xalq gülüşünün poetikası. Bakı, Elm

4. Aday, E., & Moldatayev, K. (2016). *Kazak Halk Edebiyatında Bir Mizah Kahramanı Olarak Aldar Köse*. Türk Dünyası İncelemeleri Dergisi, 16(1), s. 79-90

5. Bolat, N. (2017). *Keloğlan Kimliğinde Türk Masalları Anlatısı: Propp Yönteminde Türk Masalları*. MANAS Sosyal Araştırmalar Dergisi, 6(3), 201–226. https://izlik.org/JA67UK62TU

6. Boratav P.N. (1996). Nasreddin Hoca. https://www.scribd.com/doc/283537180/Nasreddin-Hoca-Pertev-Naili-Boratav

7. Ergun, P. (2004). *Altay Destanlarında ve Anadolu Türk Masallarında Tastarakay-Keloğlan*. Türk Dünyası Dil ve Edebiyat Dergisi, 18. Retrieved from https://turkoloji.cu.edu.tr/HALKBILIM/pervin_ergun_altay_turk_destanlari_keloglan.pdf

8. McGuire, G. V. (2022). Trickster, comrade, citizen: The adventures of Aldar Köse in Kazakh folktales and mass culture. *Journal of American Folklore, 135*(537), s. 281–304. https://tinywebs.info/nIomqX

9. Öğüt-Eker, G. (2005). *Nasrettin Hodja in the Turkic World*. Hacettepe University, Ankara, Turkey. Retrieved from https://www.academia.edu/5541671/Nasrettin_Hodja_in_the_Turkic_World?utm_source

10. Şahin, H. İ. (2012). Aldar Köse tipi ve Taşkent'te (Özbekistan) yayımlanmış taşbaskısı Aldar Köse kitabı üzerine bir değerlendirme. *Türkiyat Mecmuası, 22*(1), s. 171-192.

11. Şimşek, E. (2017). *Türk masallarının millî tipi: Keloğlan*. AKRA Kültür Sanat ve Edebiyat Dergisi, 5(11), 41–57.

12. Solmaz, E. (2016). *Özbek mizahında Nasreddin Hoca algısı*. Motif Akademi Halkbilimi Dergisi, 9(18), 229-238.

13. Solmaz, E. (2017). *İşlevleri Bağlamında Özbek Afandi Fıkraları*. International Journal of Uyghur Studies, 9, 60-79.

14. Uçkun, R. (2018). *Keloğlan tipinin Gagauz masallarındaki yansımaları*. Journal of Turkish World Studies, 18(2), 543–569. https://tinywebs.info/L6Y6kN

15. Ulutaş, M., & Batur, Z. (2020). *Keloğlan masallarında tutum ve davranışlar: Anne-çocuk ilişkisi*. Kastamonu Education Journal, 28(5), 2148–2155.

16. Сказка Алдар Көсе и Шықбермес Шығайбай. 2026. https://ertegiler.kz/ru/story/aldar-kose-men-shykbermes-shygaibai?utm_source

*Redaksiyaya daxilolma tarixi: İlkin variant: 15.05.2026*
*Son variant: 18.05.2026*